**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# ELMİRA NƏZİROVANIN YARADICILIQ XÜSUSİYYƏTLƏRİ

İxtisas: 6213.01 – Musiqi sənəti

Elm sahəsi: Sənətşünaslıq

İddiaçı: **Məryəm Nəsir qızı Yusifova**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2024**

Dissertasiya işi Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının "Musiqi tarixi" kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor
**Zemfira Həsən qızı Qafarova**

Rəsmi opponentlər: sənətşünaslıq doktoru, dosent
**İnara Eldar qızı Məhərrəmova**

sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent
**Ülkər Kamal qızı Talıbzadə**

sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent
**Züleyxa Rafiq qızı Abdulla**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının nəzdində fəaliyyət göstərən FD 2.36 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor
**Ülviyyə İsmayıl qızı İmanova**

Dissertasiya şurasının elmi katibi: sənətşünaslıq doktoru, dosent
**Leyla Ramiz qızı Zöhrabova**

Elmi seminarın sədri: sənətşünaslıq doktoru, dosent
**Aytac Elxan qızı Rəhimova**

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və elmi işlənmə dərəcəsi.** İncəsənətdə bir neçə istiqamətin qarşılıqlı əlaqəsi Azərbaycan musiqi ənənələrinin ayrılmaz tərkib hissəsidir və nəticə olaraq, kompozisiya, ifaçılıq və pedaqogikanın sintezi onların üzvi davamıdır.

İdrak və tədqiqat obyektinə differensial yanaşma müasir musiqi elmi və sənətinin səciyyəvi xüsusiyyətidir. Nəticədə dar ixtisaslaşma fenomeni yaranır ki, bu da peşəyə birtərəfli yanaşmaya, həmçinin musiqiçinin yaradıcılıq fəaliyyətinin musiqi elmi və sənətinin digər sahələrindən tədricən təcrid olunmasına səbəb olur. Mövcud vəziyyət milli musiqi sənəti nümayəndələrinin çoxşaxəli yaradıcılığının öyrənilməsi həllinə kömək edə biləcək müəyyən problem yaradır.

Milli peşəkar fortepiano məktəbinin yaranması, təşəkkülü, inkişafı və çiçəklənməsi tarixi Azərbaycanın mədəni irsinin ayrılmaz tərkib hissəsidir. Çətin formalaşma yolu keçmiş Azərbaycan fortepiano məktəbi kifayət qədər qısa müddət ərzində yüksək nəticələr göstərmişdir. Bu, müəyyən dərəcədə peşəkar pianoçular və müəllimlər Georgi Georgiyeviç Şaroyevin və Mayor Rafailoviç Brenerin pedaqoji fəaliyyəti sayəsində mümkün olmuşdur. Onların böyük səbr və diqqət tələb edən əməyi sonradan milli pianoçuluq məktəbinin formalaşması üçün zəmin yaratmışdır. Onlar şagirdlərinə rus fortepiano məktəbinin yüksək ənənələrini ötürərək, Azərbaycan pianoçuluğunun sürətlə çiçəklənməsi və milli pedaqoji və ifaçı kadrların geniş vüsət almalarına təkan vermişlər ki, onlar da öz növbəsində, tədris metod və prinsipləri arsenalını zənginləşdirmişlər.

Yaradıcılıq fəaliyyəti qoyulan əsasların məntiqi davamı və inkişafı olan o dövrün görkəmli pedaqoqları sırasına məzunları sonralar yüksək peşəkarlıq yolundakı fəaliyyətlərində estafeti uğurla mənimsəmiş Vladimir Kozlov, Koykeb Səfərəliyeva, Lidiya Yeqorova, Regina Siroviç, Nigar Usubova, Rauf Atakişiyev, Simuzər Quliyeva, Elmira Nəzirova, Rafiq Quliyev, Elmira Səfərova, Oqtay Abaskuliyev və başqaları daxildir.

Azərbaycan fortepiano məktəbinin formalaşması prosesində müəlliminin Peterburq və Moskva pianoçuluq məktəblərinin yüksək ənənələrini mənimsəmiş bir sıra gözəl pianoçular yetişdirmiş

E.Nəzirova mühüm rol oynamışdır. E.Nəzirovanın ifaçılıq fəaliyyəti bilavasitə həm onun bəstəkarlıq yaradıcılığında, həm də müəllimlik fəaliyyətində öz əksini tapmışdır. Fortepiano onun üçün “doğma” alət olmaqla E.Nəzirovanın bəstəkarlıq axtarışları və pedaqoji nailiyyətlər sferasını doldurmuşdur. E.Nəzirova bəstəkarın fərdi pianoçuluq üslubunu, həssas pedaqoji intuisiyasını nümayiş etdirir və XX yüzilliyin Azərbaycan fortepiano musiqisində maraqlı yaradıcı şəxsiyyətlərdən biri kimi tanınır.

E.Nəzirova təkcə bəstəkarlıq və ifaçılıq yaradıcılığı ilə deyil, həm də istedadlı gənc pianoçuların axtarışı və üzə çıxarılması sahəsində inanılmaz fəaliyyəti ilə milli fortepiano sənətinin formalaşmasına böyük töhfə vermişdir. Onun şəhər musiqi məktəblərində çoxsaylı baxış və dinləmələrdə, müxtəlif müsabiqələrin münsiflər heyətində bilavasitə iştirakı, ölkənin müxtəlif musiqi təhsili müəssisələrində ustad dərsləri və məsləhət saatları buna bariz nümunədir. Bunun sayəsində bir çox istedadlar öz yaradıcılıq həyatına başlamışlar ki, onun bilavasitə iştirakı ilə formalaşmış məzunların və musiqiçilərin xatirələri bunu bir daha sübuta yetirir. Mövcud tədqiqat işində E.Nəzirovanın müəllim, pianoçu, bəstəkar, eləcə də ictimai xadim kimi yaradıcılıq portretini üzə çıxarmaqla onun çoxşaxəli şəxsiyyətinin bütün cəhətlərini əhatə etməyə cəhd göstərilmişdir. Onun şəxsiyyətinin tam mənzərəsini yenidən yaratmaq üçün təqdim olunan tədqiqatın müəllifi onun məzunları və istedadının pərəstişkarları ilə bir sıra müsahibələr aparmışdır. E.Nəzirovanın tərcümeyi-halına həsr olunmuş ədəbiyyat az olduğundan onun şəxsiyyətinin öyrənilməsində həm də Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının arxiv məlumatları əsas götürülmüşdür.

Onun bəstəkar irsinin əsərləri zəmanəmizin görkəmli musiqiçilərinin ifaçılıq repertuarında möhkəm yer almışdır. Bu tədqiqat işində F.Əmirov və E.Nəzirovanın Ərəb mövzularında fortepiano konsertinin görkəmli pianoçu, SSRİ və Azərbaycanın Xalq artisti, professor Fərhad Bədəlbəyli tərəfindən şərhini nəzərdən qaçırmaq mümkün deyildir. Onun ifaçılıq təfsiri prizmasından bir sıra mühüm aspektlər, xüsusən də ifaçının yaradıcı şəxsiyyətinin musiqi əsərinin taleyinə təsiri və ifaçının bəstəkarlıq təcrübəsinin musiqi əsəri üzərində iş prosesinə təsiri aşkarlanır.

E.Nəzirovanın yaradıcılıq yolu indiyədək əsasən onun bəstəkarlıq fəaliyyətinə toxunmaqla yalnız dar çərçivədə tədqiq edilmiş, onun istedadının ifaçılıq və pedaqoji tərəfləri isə yetərincə öyrənilməmişdir. Bu boşluğun mövcudluğu musiqişünaslıq elmində müəyyən problem yaradır ki, bu da öz növbəsində onun dərin və geniş öyrənilməsi və tədqiqi yolu ilə həllini tələb edir. Təqdim olunan işin aşağıdakı dörd istiqamətdə ilk genişmiqyaslı tədqiqat olduğunu nəzərə alsaq, bu, xüsusi aktuallıq kəsb edir:

1. E.Nəzirovanın bəstəkarlıq, ifaçılıq və pedaqoji fəaliyyətinin qarşılıqlı əlaqəsi.
2. E.Nəzirovanın Azərbaycan fortepiano məktəbinin təşəkkülü və inkişafı prosesində müəllim kimi rolu.
3. E.Nəzirovanın bəstəkarlıq irsinin geniş musiqi təhlili.
4. E.Nəzirovanın F.Əmirovla yaradıcılıq tandeminin xüsusiyyətləri, həmçinin onların F.Bədəlbəylinin Ərəb mövzulu fortepiano konsertinin ifaçılıq təfsirinin fərqli cəhətləri və ətraflı təhlili.

Bu əsərdə E.Nəzirovanın bütün bəstəkarlıq irsinin əhatə olunmasına və tədqiqinə cəhd göstərilmişdir, lakin onun hələ çap olunmamış əsərlərinin bir qismi itdiyi üçün bu, qarşıya qoyduğumuz vəzifənin yerinə yetirilməsində müəyyən çətinliklər yaratmışdır. Bəzi nəşr olunmuş əsərlər bu işin məhdud çərçivədə olduğu səbəbdən dissertasiya tədqiqatına daxil edilməmişdir. Yuxarıda deyilənlərlə əlaqədar olaraq, musiqiçinin peşəkar fəaliyyətinin tədqiq olunan istiqamətlərinin genişliyini nəzərə alaraq, E.Nəzirovanın yaradıcılığında musiqi sənətinin bəstəkarlıq, ifaçılıq və pedaqogika kimi sahələrinin öyrənilməsi problemi xüsusilə aktuallaşır.

E.Nəzirovanın yaradıcılığının icmalına, eləcə də onun müxtəlif dövrlərdəki bəzi əsərlərinin nəzəri təhlilinə T.Seyidov[1], V.Şərifova-Əlixanova[2], S.Əliyeva[3], D.Məmmədbəyova[4], D.Danilov[5],

---

[1] Сеидов, Т. А. Творчество Эльмиры Назировой. // – Баку: Ученые записки АГК. История и теория музыки, – 1977. серия XIII, № 1, – с. 67-82

[2] Шарифова-Алиханова, В.Ш. Фикрет Амиров (жизнь и творчество) / В.Ш.Шарифова-Алиханова. – Баку: Сада, – 2005. – 240 с.

[3] Алиева, С.С. Методические рекомендации к исполнению фортепианных произведений Эльмиры Назировой / С.С.Алиева. – Баку, – 1985. – 18с.

[4] Мамедбеков, Д.И. Фортепианный концерт на арабские темы Ф.Амирова и Э.Назировой / Д.И.Мамедбеков. – Баку: Азернешр, – 1964. – 52 с.

E.Abbasova[6], A.Zamanova[7], A.Abdullayev[8] kimi Azərbaycan musiqişünasları və tədqiqatçıları müraciət etmişlər.

Tədqiq olunan problemin pedaqoji aspektinə həsr olunmuş xüsusi ədəbiyyata gəlincə, A.Alekseyev[9], S.Savşinski[10], Q.Neuqauz[11], S.Feynberq[12], Y.Milşteyn[13], L.Barenboym[14], L.Oborin[15], G.Koqan[16], T.Kengerlinskaya[17] kimi müəllifləri qeyd etmək lazımdır. E.Nəzirovanın bəstəkarlıq irsinin təhlili prosesində

---

[5] Данилов, Д.Х. Концерт на арабские темы // – Москва: Советская музыка, – 1958. № 1 (230), – с. 69-72

[6] Абасова, Э.Г. Очерки музыкального искусства советского Азербайджана (1920-1956) / Э.Г.Абасова, К.А.Касимов. – Баку: Элм, – 1970. – 178 с.

[7] Заманова, А.А. Об особенностях претворения некоторых принципов фольклора в фортепианном концерте Ф.Амирова и Э.Назировой // Проблемы развития архитектуры и искусства в советском Азербайджане. Тезисы докладов конференции молодых ученых, – Баку: Элм, – 1983, – с. 33

[8] Абдуллаев, А.Д. Концерт на арабские темы Ф.Амирова и Э.Назировой. Методическая разработка к изучению и исполнению для студентов фортепианного факультета / А.Д.Абдуллаев. – Баку: изд.Азнефтехима, – 1987. – 12 с.

[9] Алексеев, А.Д. Творчество музыканта-исполнителя: На материале интерпретаций выдающихся пианистов прошлого и настоящего / А.Д.Алексеев. – Москва: Музыка, – 1991. – 104 с.

[10] Савшинский, С.И. Пианист и его работа. Учеб.-метод. изд / С.И.Савшинский. – Москва: Классика-XXI, – 2002. – 239 с.

[11] Нейгауз, Г.Г. Об искусстве фортепианной игры. Записки педагога. 4-е изд. / Г.Г.Нейгауз. – Москва: Музыка, – 1982. – 300 с.

[12] Фейнберг, С.Е. Пианизм как искусство. 2-е изд., доп. / С.Е.Фейнберг. – Москва: Музыка, – 1969. – 598 с.

[13] Мильштейн, Я.И. Вопросы теории и истории исполнительства. Сборник / Я.И.Мильштейн. – Москва: Советский композитор, – 1983. – 262 с.

[14] Баренбойм, Л.А. Музыкальная педагогика и исполнительство / Л.А.Баренбойм. – Ленинград: Музыка, – 1974. – 336 с.

[15] Оборин, Л.Н. Композитор-исполнитель // Вопросы фортепианного исполнительства. Очерки, статьи. Сост. и общая ред. М.Г.Соколова. Вып. 3. – Москва: Музыка, – 1973. – с. 138-141

[16] Коган, Г.М. Вопросы пианизма. Избранные статьи / Г.М.Коган. – Москва: Советский композитор, – 1968. – 462 с.

[17] Кенгерлинская, Т.Ф. Музыкальная педагогика – как интеграция науки и искусства / Т.Ф.Кенгерлинская. – Баку: РЦСС НАНА, – 2004, – 231 с.

İ.Sposobin[18], L.Mazel[19], V.Tsukermanın[20] əsərləri əvəzsiz köməklik göstərmişdir. Ümumilikdə ümumdünya və milli musiqi sənətinin tarixi aspektinin öyrənilməsində Q.Qasımovun, E.Abasovanın, L.Karagiçevanın[21], V.Konenin[22], R.Qruberin[23] əsərləri yardımçı olmuşdur. Təqdim olunan tədqiqatda bu materiallar, mətbuatda dərc olunan məqalələr, eləcə də E.Nəzirovanın tələbələrinin xatirələri əsasında onun yaradıcılıq fəaliyyəti bəstəkarlıq, ifaçılıq və pedaqoji prinsiplər üçlüyü prizmasından ciddi şəkildə təhlil edilmiş, həmçinin onun əksər hissəsi ilk dəfə olaraq tədqiq olunan bəstəkarlıq irsi daha dəqiqliklə öyrənilmişdir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti E.Nəzirovanın yaradıcılığında ifaçılığın, kompozisiyanın və pedaqoji fəaliyyətin sintezidir. Tədqiqatın predmeti E.Nəzirovanın bəstəkarlıq irsi, onun pedaqoji işi və istedadının ifaçılıq tərəfi, həm də E.Nəzirova sinfinin ən parlaq yetirmələrinin peşə fəaliyyətidir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi E.Nəzirovanın yaradıcılığı nümunəsində musiqiçinin fəaliyyətinnin üç istiqamətinin qarşılıqlı əlaqə və qarşılıqlı təsiri probleminin öyrənilməsidir. Bu məqsədə nail olunması üçün dissertasiya tədqiqatında ilk dəfə olaraq aşağıdakı əsas elmi vəzifələr qarşıya qoyulmuşdur:

1. Musiqiçinin fəaliyyətinin bəstəkarlıq, ifaçılıq və pedaqoji növləri arasındakı qarşılıqlı əlaqənin xüsusiyyətlərinin müəyyənləşdirilməsi.

---

[18] Способин, И.В. Музыкальная форма. Учеб. для муз. уч-щ и вузов. 7-е изд. / И.В.Способин. – Москва: Музыка, – 1984. – 400 с.

[19] Мазель, Л.А. Строение музыкальных произведений. Учеб. пособие для муз. вузов. 2-е изд., доп. и перераб. / Л.А.Мазель. - Москва: Музыка, 1979. - 534 с.

[20] Цуккерман, В.А. Музыкальные жанры и основы музыкальных форм / В.А.Цукерман. – Москва: Музыка, – 1964. – 159 с.

[21] Абасова, Э.Г. История азербайджанской музыки. Часть I / Э.Г.Абасова, Л.В.Карагичева, С.Д.Касимова, Н.А.Мехтиева, А.З.Тагизаде; – Баку: Маариф, – 1992. – 335 с.

[22] Конен, В.Д. История зарубежной музыки. Вып. 3. С 1789 г. до середины XIX века. Изд. 5-е / В.Д.Конен. – Москва: Музыка, – 1981. – 534 с.

[23] Грубер, Р.И. Всеобщая история музыки (издание 2-е, испарвленное и дополненное). Часть 1 / Р.И.Грубер. – Москва: Государственное Музыкальное Издательство, – 1960. – 488 с.

2. Üç musiqi istiqamətinin vəhdəti prizmasından E.Nəzirova yaradıcılığının təşəkkülü və sonrakı ikişafının izlənilməsi.

3. Onun çoxşaxəli yaradıcılıq yolunun hadisə və faktlarının öyrənilməsi və xronoloji ardıcıllıqla sıralanması.

4. E.Nəzirovanın yüksək ənənələrini həm Azərbaycanda, həm də onun hüdudlarından kənarda davam etdirən məzunlarının gələcək yaradıcılıq fəaliyyəti nümunəsində onun şəxsiyyətinin milli fortepiano məktəbinin formalaşmasına təsirinin üzə çıxarılması.

5. Onun bəstəkarlıq irsinin əsas nümunələrinin təhlil edilməsi və forma tiplərinə görə sistemləşdirilməsi:

a) kiçik formalı əsərlər (fortepiano prelüdləri, etüdləri, fortepiano ilə violonçel üçün elegiya).

b) iri formalı əsərlər (Sonatina və fortepiano üçün Sonata-poema, Violonçel sonatası, cis-moll, g-moll piano variasiyaları).

6. F.Əmirovla yaradıcılıq tandeminin xüsusiyyətlərinin onların yaratdıqları, milli musiqi ədəbiyyatı xəzinəsinə daxil olan əsərlərdən nümunə götürərək öyrənilməsi:

a. Alban xalq mövzularında iki fortepiano üçün süita.

b. Ərəb mövzularında fortepiano konserti.

7. Görkəmli Azərbaycan pianoçusu F.Bədəlbəylinin ifasında E.Nəzirova və F.Əmirovun Ərəb mövzulu fortepiano konsertinin təfsiri xüsusiyyətlərinin aşkara çıxarılması.

**Tədqiqat metodları.** Dissertasiya tədqiqatının əsasını təşkil edən metodlar həm empirik, həm də nəzəridir. Beləliklə, təqdim olunan tədqiqatın metodoloji əsasları aşağıdakılardan ibarətdir:

1. Faktiki materialların toplanması (not nəşrləri və əlyazmaları, musiqi əsərlərinin təhlili probleminə dair köməkçi ədəbiyyat, audio- və video-yazılar, arxiv məlumatları).

2. Anketlər və müsahibələr vasitəsilə məlumatların toplanması.

3. Musiqi əsərlərinin nəzəri təhlili.

4. Ərəb mövzularında fortepiano konserti nümunəsindən istifadə etməklə ifaçılıq təhlili metodu.

5. Tarixi-xronoloji metod E.Nəzirovanın yaradıcılıq fəaliyyətinin xronologiyasını əks etdirən arxiv məlumatlarının ADK dövrünə aid Ü.Hacıbəyli adına BMA-da qorunan sərəncam və digər sənədlər nümunəsindən istifadə edərək öyrənilməsi ilə təmsil olunur.

6. Tədqiqat zamanı videokonsertlərə, pianoçuların CD-lərdə, səs yazılarında, audio-kasetlər və YouTube video hostinqində ayrı-ayrı çıxışlarına baxış, onların dinlənilməsi və təhlili kimi metodların cəmindən istifadə etmək zərurəti yaranmışdır.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Musiqiçilik fəaliyyətində kompozisiya, ifaçılıq və pedaqogika kimi sahələrin cəmləşdiyi üçlük problemi müəyyən elmi əsaslandırma tələb edir. Bu cəhəti, eləcə də bu cür üçlüyü uğurla nümayiş etdirən yaradıcı şəxsiyyətlərə tez-tez rast gəlinmədiyini nəzərə alaraq, E.Nəzirovanın musiqi sənətinin üç istiqamətinin sintezi nümayəndəsi kimi fəaliyyətinin öyrənilməsi zərurəti üzə çıxmışdır. Bununla əlaqədar olaraq, tədqiqatın müəllifi dissertasiyanın aşağıdakı əsas müddəalarını müəyyən etmişdir:

1. Bəstəkarlıq yaradıcılığının və ifaçılığın qarşılıqlı təsiri.
2. İfaçılıq fəaliyyətinin pedaqoji təcrübəyə təsiri.
3. Tədris işinin bəstəkarlıq yaradıcılığında metodik yönümə, məhz fəaliyyətə yeni başlayan pianoçuların tədris repertuarı üçün əsərlərin yaradılmasına təsiri.

E.Nəzirovanın yaradıcılığının nümunəsində musiqiçinin peşəkar fəaliyyətinin pianoçuluq, bəstəkarlıq və pedaqoji tərəfləri arasında sıx əlaqə aşkar edilmişdir. Tədqiqat zamanı təkcə E.Nəzirovanın tələbələrinin yaradıcılıq taleyinə deyil, bütövlükdə Azərbaycan fortepiano məktəbinin inkişafına və formalaşmasına təsir edən amillər müəyyən edilmişdir.

**Tədqiqatın elmi yeniliyi.** Təqdim olunan dissertasiya işində ilk dəfə olaraq görkəmli Azərbaycan pianoçusu, pedaqoqu, bəstəkarı, ictimai xadim E.Nəzirovanın çoxşaxəli yaradıcılığı ətraflı tədqiq edilmişdir. E.Nəzirovanın fəaliyyətinin səciyyəvi cəhəti müəllif tərəfindən hərtərəfli təhlil edilən bəstəkarlıq, ifaçılıq və pedaqogikanın sintezidir. Onun yaradıcı portreti dəqiq xronoloji ardıcıllıqla təfərrüatlı şəkildə təsvir olunur. Materiallar ilk dəfə olaraq E.Nəzirovanın tələbələri və həmkarları ilə müsahibə formatında şəxsi söhbətlər əsasında toplanmışdır. İlk dəfə olaraq E.Nəzirovanın əsərlərinin hərtərəfli, ətraflı nəzəri təhlili aparılmış və onun bəstəkarlıq irsi fortepiano prelüdləri, etüdləri, iki variasiya silsiləsi, Sonata-poema, Sonatina, violonçel sonata və elegiyası, Alban xalq mövzularında iki

fortepiano üçün süita (F.Əmirovla həmmüəlliflikl), Ərəb mövzularında fortepiano konserti (F.Əmirovla həmmüəllifliklə) timisalında sistemləşdirilmişdir. E.Nəzirovanın yaradıcılığı milli fortepiano və bəstəkarlıq məktəblərinin inkişafında mühüm rol oynamış və pianoçuların, bəstəkarların və pedaqoqların sonrakı nəsillərinin gələcək peşəkar yüksəlişinə təkan vermişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Təqdim olunan dissertasiya işi Azərbaycan musiqi tarixi kursunun tərkib hissəsi, fortepiano sənəti tarixi kursu üçün köməkçi ədəbiyyat kimi istifadə oluna bilər. Dissertasiyada qeyd olunan müddəalar sonrakı tədqiqatlar və gələcək elmi işlər üçün əsas yaradır.

**Aprobasiya və tətbiqi.** Tədqiqatın əsas müddəaları aşağıdakı respublikadaxili və beynəlxalq konfranslarda müzakirə edilmişdir: VI Uluslararası müzik ve dans kongresi (Türkiyə, Alanya, 2020-ci il), VII Uluslararası müzik ve dans kongresi (Türkiyə, İzmir, 2021-ci il), "Musiqişünaslığın aktual problemləri" (Azərbaycan, Bakı, 2019-cu il), "Bəstəkar və zaman" (Azərbaycan, Bakı, 2021-ci il), doktorantlar və gənc alimlərin XXIV Respublika elmi konfransı (Azərbaycan, Bakı, 2021-ci il), "Şuşanın musiqi mədəniyyəti: tarixi və inkişaf perspektivləri" (Azərbaycan, Bakı, 2024-cü il). Tədqiqatın əsas nəticələri "Музыка и время" (Rusiya, Moskva), "Musiqi Dünyası", "Konservatoriya", "Sənət akademiyası", "Axtarışlar" kimi jurnallarda elmi məqalələrdə də təqdim olunmuşdur.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının "Musiqi tarixi" kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya girişdən, üç fəsil, yeddi paraqraf, nəticə, istifadə edilmiş ədəbiyyat siyahısından və E.Nəzirovanın müəllif əlyazmalarını özündə əks etdirən əlavədən ibarətdir. Dissertasiya bölmələrinin struktur ölçüsü Girişdə – 9 səhifədən (13152 işarə), I fəsildə – 43 səhifədən (71629 işarə), II fəsildə – 81 səhifədən (77016 işarə), III fəsildə – 32 səhifədən (40951 işarə), Nəticədə – 6 səhifədən (8635 işarə) ibarətdir. İstifadə olunmuş ədəbiyyat siyahısı və əlavələr istisna olmaqla dissertasiya 173 səhifədən (212798 işarə) ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

**GİRİŞDƏ** mövzunun aktuallığı və elmi işlənmə dərəcəsi, tədqiqatın elmi yeniliyi əsaslandırılır, tədqiqatın məqsəd və vəzifələri, həmçinin tətbiq edilən tədqiqat metodları, müdafiəyə təqdim olunan əsas müddəalar, tədqiqatın nəzəri və praktiki əhəmiyyəti müəyyən edilir.

**I Fəsil – "Elmira Nəzirovanın yaradıcılığı nümunəsində ifaçılıq və bəstəkarlıq sənətinin qarşılıqlı əlaqəsi məsələsinə dair" -** iki paraqrafdan ibarətdir və E.Nəzirovanın yaradıcılıq portretini onun peşə fəaliyyətinin üç aspekti prizmasından açıqlayır. Birinci paraqraf **"Elmira Nəzirova – pianoçu, bəstəkar, pedaqoq"** adlanır və burada bəstəkarlıq və ifaçılıq sənəti arasındakı qarşılıqlı əlaqənin kifayət qədər mürəkkəb, ətraflı, hərtərəfli təhlilə layiq hadisə olduğu qeyd edilir. Bir tərəfdən, musiqiçinin bəstəkarlıq və ifaçılıq fəaliyyətinin qarşılıqlı əlaqəsi probleminin mənşəyi musiqi tarixində dərin köklərə malikdir. Digər tərəfdən, problem bu gün də müasir bəstəkarların peşə yaradıcılığında aktuallaşır.

Azərbaycanın əməkdar incəsənət xadimi, professor E.Nəzirovanın yaradıcılıq yolu ifaçılıq, bəstəkarlıq və müəllimlik məharətinin üzvi vəhdətinin ən bariz nümunəsidir. Onun Azərbaycan musiqi mədəniyyətinə və pedaqogikasına verdiyi əvəzsiz töhfə son dərəcə əhəmiyyətlidir. Paraqrafda E.Nəzirovanın tərcümeyi-halından faktlar xronoloji ardıcıllıqla təqdim olunur, həmçinin onun peşəkar inkişafının tarixi əsasları qeyd olunur. Onun yaradıcılıq taleyində mühüm rol oynamış milli musiqi sənətinin korifeyi Ü.Hacıbəyliyə xüsusi yer ayrılır.

E.Nəzirovanın adi iş günləri fəal qastrol həyatı, bəstəkarlıq uğurları, eləcə də məhsuldar pedaqoji fəaliyyətlə zəngin olmuşdur. Bəstəkarlıq yaradıcılığını E.Nəzirova daim ifaçılıqla birləşdirirdi. Onun qastrol coğrafiyası Çexoslovakiya, Polşa, Misir Ərəb Respublikası, eləcə də SSRİ respublikaları kimi ölkələri əhatə edirdi. Konsert repertuarında İ.S.Bax, V.A.Motsart, L.V.Bethovenin, F.Şopen, F.List, S.Raxmaninov və digər bəstəkarların əsərlərinin yer aldığı virtuoz pianoçu olaraq o, tez-tez öz əsərlərini də ifa edirdi. SSRİ və Azərbaycanın xalq artisti, görkəmli bəstəkar F.Əmirovla

birgə yazılmış Ərəb mövzulu fortepiano konserti tamaşaçılara xüsusi zövq verirdi. E.Nəzirova təkcə keçmiş Sovet İttifaqında deyil, həm də Niyazi, E.Svetlanov, N.Anosov, V.Feldbrili (Kanada), R.Satanovski (Polşa) kimi dirijorluq sənəti ustadları ilə birlikdə çıxış edərək xarici ölkələrdə konsert verirdi.

E.Nəzirovanın uğurlu pedaqoji fəaliyyəti onun 1951-ci ildən 1954-cü ilə qədər ADK-nin Fortepiano kafedrasında assistent təyin olunması ilə başlamışdır. Pedaqoji sahədə uzun illər səmərəli fəaliyyətinin məntiqi nəticəsi onun 1974-cü ildə ADK-da xüsusi Fortepiano kafedrasının müdiri vəzifəsinə təyin edilməsi olmuşdur.

İstedadlı pedaqoq olan E.Nəzirova öz şagirdlərinin ifaçılıq texnikası və musiqi zövqünü inkişaf etdirmək üçün daim yeni metod və üsulların axtarışında olmuşdur. Onun pedaqoji fəaliyyəti son dərəcə çoxşaxəlidir. Burada fəaliyyətə yeni başlayan gənc pianoçularla iş Konservatoriya tələbələri ilə dərslərlə ən üzvi şəkildə birləşmişdir. ADK-nin professoru olmaqla yanaşı, o, Bülbül adına orta ixtisas məktəbində də dərs deyirdi. Beləliklə, E.Nəzirova artıq musiqiçinin inkişafının ilkin mərhələsində öz tələbələrində pianoçuluq texnikasının və ümummusiqi intellektinin əsasını qoyurdu. Sonralar onun böyük zəhmət tələb edən və əziyyətli pianoçuluq işi mühitində tərbiyə alan yetirmələri nümunəvi tələbələrə, sonra isə parlaq, öz yaradıcı "mən"inə sahib olan düşüncəli, yüksək peşəkarlığa malik musiqiçilərə çevrilirdilər. E.Nəzirovanın sinfi Azərbaycan musiqi mədəniyyətinə və pedaqogikasına yaradıcılığın müxtəlif sahələri üzrə çoxlu mükəmməl mütəxəssislər qazandırmışdır. Onun tələbələri arasında pedaqoqlar da, pianoçular da, musiqişünaslar da, bəstəkarlar da var. E.Nəzirovanın tələbələri respublikanın müxtəlif musiqi müəssisələrində tez-tez konsertlərlə çıxış edirdilər. Ölkə qəzetlərində dəfələrlə Azərbaycanın aparıcı musiqişünaslarının E.Nəzirova sinfinin konsertlərinə yüksək rəyləri dərc olunurdu.

E.Nəzirovanın pedaqoji fəaliyyəti onun istedadının bəstəkarlıq və ifaçılıq tərəfləri ilə sıx əlaqədə olmuşdur. E.Nəzirovanın istedadının bəstəkarlıq komponenti ona ifa etdiyi əsəri tələbəyə musiqi yaradıcılığı prosesi prizmasından açmağa imkan verirdi. Musiqi materialının bəstəkar ideyasını, ifadə elementlərini, forma və təşkilini, məqam-harmonik quruluşunu və pianoçuluq fakturasını

dolğun şəkildə təqdim edən E.Nəzirova tələbədə öyrənilən əsər üzərində gələcək işlərin aydın təsəvvürünü yaradırdı. Şəxsi ifaçılıq nümunəsi ilə o, tələbələrini ruhlandırır, onlarda pianoçuluq inamını oyadır, onlara musiqi fərdiliyini ifadə etməkdə yardımçı olurdu.

E.Nəzirova ADK-nın bir sıra müəllimləri sırasında ölkənin uşaq musiqi məktəblərinin müəllimlərinin peşəkarlıq səviyyəsinin yüksəldilməsində fəal iştirak etmiş, şagirdlərin Zaqafqaziya, ümumittifaq və beynəlxalq müsabiqələrə hazırlanmasında da fəallıq göstərmişdir. O, həmçinin dəfələrlə beynəlxalq müsabiqələrin seçim dinləmələrinin münsiflər heyətinin üzvü kimi dəvət olunmuş və tez-tez Bülbül adına musiqi məktəbinin və SSRİ-nin digər musiqi müəssisələrinin məzunlarının imtahan komissiyalarında iştirak etmişdir.

Peşəkar fəaliyyəti boyu Azərbaycan SSR Sovet Bəstəkarları İttifaqının üzvü olan E.Nəzirova mütəmadi olaraq SSRİ Bəstəkarlar İttifaqının çoxsaylı plenumlarında, qurultaylarında, Azərbaycan musiqisi dekadalarında çıxış etmiş, dəfələrlə SSRİ-nin, Azərbaycanın müxtəlif şəhərlərinə ezam olunmuş, ölkənin mədəni tədbirlərində respublikanı təmsil etmişdir.

Bəstəkar E.Nəzirova özünəməxsus, hər şeylə maraqlanan yaradıcı insan olmaqla ən müxtəlif janrlarda əsərlər yaratmışdır. Onun qələminə Simli kvartet, Skripka və Violonçel sonataları, Simfonik orkestr üçün uvertüra və Violonçel elegiyası məxsusdur. Bununla belə, onun bəstəkarlıq yaradıcılığında əsas yeri fortepiano üçün əsərlər tutur. Məhz fortepiano musiqisində E.Nəzirovanın istedadlı pianoçu olması özünü aydın şəkildə büruzə vermişdir. “Doğma” fortepiano bəstəkar üçün onun bəstələmə üslubunun əsas xarakterik xüsusiyyətlərinin yarandığı başlıca yaradıcılıq laboratoriyası olmuşdur. E.Nəzirovanın fortepiano əsərləri fərdi pianoçuluğu, faktura plastikliyi və rasionallığı ilə seçilir. Bu, şübhəsiz ki, onun parlaq ifaçılıq istedadı, alətin spesifik keyfiyyətlərini və koloristik imkanlarını, eləcə də bir proses kimi pianizmin psixofizioloji xüsusiyyətlərini dərindən bilməsi ilə izah olunur. E.Nəzirovanın fortepiano əsərləri arasında F.Əmirovla həmmüəllifliklə yazılmış Alban xalq mövzusunda iki fortepiano üçün süitanın, Azərbaycan musiqisində bu janrın ilk nümunələri olan dörd etüdün, beş prelüdün, Sonata-poemanın, iki silsiləli variasiyanın,

Sonatinanın, həmçinin Azərbaycan xalq mahnı və melodiyalarının fortepiano aranjimanlarının adlarını çəkmək istərdik. Alban xalq mövzusunda iki fortepiano üçün süita iki istedadlı musiqiçi arasında gələcək məhsuldar əməkdaşlığın müjdəsi olmuşdur. Əla rəylər alan bu virtuoz əsər Ərəb mövzularında fortepiano konsertinin birgə ərsəyə gəlməsinə zəmin yaratmışdır. E.Nəzirovanın fortepiano əsərləri onun təkcə bəstəkar və ifaçılıq istedadının deyil, həm də çoxşaxəli yaradıcılıq təbiətinin pedaqoji mahiyyətini üzə çıxarmışdır. E.Nəzirovanın fortepiano əsərləri nəinki pianoçuların konsert repertuarında möhkəm yer tutmuş, həm də pedaqoji repertuar üçün Azərbaycan musiqisinin təməl nümunələrinə çevrilmişdir.

İkinci paraqraf **"Azərbaycan fortepiano məktəbinin inkişafında Elmira Nəzirovanın rolu"** adlanır; burada E.Nəzirovanın milli pianoçuluq məktəbinin formalaşmasında rolu işıqlandırılır. Tədqiqatın müəllifi onun məzunları ilə bir sıra müsahibələr keçirmişdir və onların xatirələri pedaqoq Nəzirovanın portretini kifayət qədər ətraflı təsvir etməyə, onun tədris prosesində istifadə olunan pedaqoji prinsiplərini dərk etməyə və öyrənməyə imkan vermişdir. Onların fikrincə, E.Nəzirova tədris prosesində hər zaman fərdi yanaşma prinsipindən istifadə edən, pedaqoji iradə nümayiş etdirən, eyni zamanda, təfəkkürün təfsiretmə azadlığını təmin edən həssas müəllimdir.

E.Nəzirovanın yetirmələri həm Azərbaycanın, həm də dünyanın bir çox ölkələrinin müxtəlif musiqi müəssisələrində peşə fəaliyyətlərində müəllimlərinin ən yaxşı ənənələrini davam etdirmişlər. Bu paraqrafda BMA-nın professoru, Bluminqtonda İndiana Universiteti nəzdində Cakobs Musiqi Məktəbinin müəllimi, Azərbaycan musiqisinə həsr olunmuş kitabların, məqalələrin, multimedia layihələrinin müəllifi Aida Hüseynovanın, BMA-nın professoru, Azərbaycanın Əməkdar müəllimi, Çukurova Universitetinin (Türkiyə, Adana) professoru Səidə Behbutovanın, Bülbül adına orta ixtisas musiqi məktəbinin xüsusi fortepiano sinfinin müəllimi Aynurə Qasımovanın, BMA-nın dosenti Məryəm Məlikovanın, Ankara şəhəri Opera və Balet Teatrının konsertmeysteri, Mersin Universiteti nəzdində Mersin Konservatoriyasının müəllimi Əhəd Əsgərovun, BMA-nın "Metodika və xüsusi pedaqoji təlim"

kafedrasının müdiri, dosent, sənətşünaslıq üzrə fəlsəfə doktoru Elnarə Məmmədovanın, həmçinin BMA-nın baş müəllimi Nərminə Hacızadənin xatirələri təqdim olunur.

E.Nəzirovanın şəxsiyyəti təkcə onun tələbələrinə deyil, həm də Azərbaycan pianoçularının nəsillərinə təsir etmişdir. Onun yaradıcılığının musiqiçi taleyinə təsirinin bu cür nümunələrindən birini müəllif bu paraqrafda Bülbül adına orta ixtisas musiqi məktəbinin xüsusi fortepiano müəllimi Elmira Mustafayevanın xatirələri əsasında təqdim edir.

**"Elmira Nəzirovanın bəstəkarlıq irsi" adlı II Fəsil** üç paraqrafdan ibarətdir ki, burada E.Nəzirovanın ən diqqətçəkən və dəyərli əsərləri təhlil edilir. Birinci paraqraf **"E.Nəzirovanın yaradıcılığında kiçik formalı əsərlər (fortepiano prelüdləri, etüdləri və fortepiano ilə violonçel üçün elegiya)"** adlanır. E.Nəzirovanın bəstəkarlıq irsi Azərbaycan fortepiano musiqisinin ən parlaq səhifələrindən biridir. Onun yaradıcılığında prelüdlər, etüdlər, eləcə də Azərbaycan xalq mahnı və melodiyalarının aranjimanları ilə təmsil olunan fortepiano miniatür janrı mühüm yer tutur. Təqdim olunan paraqrafda fortepiano prelüdlərinin, etüdlərinin, həmçinin fortepiano ilə violonçel üçün elegiyanın ətraflı təhlili verilmişdir.

Məlum olduğu kimi, Azərbaycanda fortepiano prelüdü janrının ilk nümunələrinin müəllifi E.Nəzirova olmuşdur. Onun yaradıcılıq yolunun başlanğıcında əlamətdar epizodladan biri - 1944-cü ilin dekabrında Tbilisidə keçirilmiş Zaqafqaziya Respublikalarının Musiqi Dekadasında çıxışı - məhz bu janrla bağlı olmuşdur; burada onun gənc bəstəkarın Qərbi Avropa, rus və Azərbaycan musiqisinin müxtəlif istiqamətləri, janrları və nümunələri ilə tanışlıq və ifaçılıq bilikləri prosesində əldə etdiyi musiqi təəssüratlarının kaleydoskopu kimi təzahür edən beş fortepiano prelüdü səslənmişdir. Fortepiano prelüdləri E.Nəzirovanın yaradıcılığında bəstəkarlıq və ifaçılıq sənəti arasındakı qarşılıqlı əlaqənin ilk parlaq bəhrəsi olmuşdur.

Azərbaycan fortepiano ədəbiyyatında ilk etüdlərin müəllifliyi də E.Nəzirova məxsusdur. Onun 1953-cü ildə yaratdığı fortepiano etüdləri dəftəri dörd nömrədən ibarətdir və özündə musiqi siklinin xüsusiyyətlərini ehtiva edir. Etüdlər silsiləsi rəngarəng obrazlı və emosional palitranı, eləcə də istifadə olunan müxtəlif janr əsaslarını

nümayiş etdirir. Siklin etüdlər üçün qeyri-səciyyəvi fakturaya malik olan pyesləri təkcə pianoçunun texniki dözümlülüyünü inkişaf etdirmək üçün deyil, həm də səsalma vərdişlərini formalaşdırmaq və fortepianonun musiqi və koloristik imkanlarını aşkarlamaq üçün nəzərdə tutulmuşdur. Beləliklə, sikldəki pyeslər “etüd” adını əsasən bu janrın mənzərəli şərhi prizmasından daşıyırlar. E.Nəzirovanın etüdlərinin musiqi materialından istifadə etməklə gənc pianoçular səs təsvirinin əsaslarına yiyələnmək, təxəyyülü, assosiativ musiqi təfəkkürünü inkişaf etdirmək imkanı əldə edirlər. Tədqiq olunan etüdlər silsiləsi çoxşaxəli pedaqoji əhəmiyyətə malikdir. Birincisi, bunlar müəyyən texniki məsələləri mənimsəməyə və yerinə yetirməyə yönəlmiş pyeslərdir. İkincisi, etüdlərin texniki tərəfinin bilavasitə bədii və obrazlı məsələlərə tabe olması gənc pianoçular tərəfindən S.Raxmaninovun etüd-təsvirlərinin, K.Debüssinin, A.Skryabinin və digərlərinin etüdlərinin sonrakı ifasına zəmin yaradır.

E.Nəzirovanın Fortepiano ilə violonçel üçün elegiyası Azərbaycan musiqisində bu janrın nümunələri sırasında layiqli yer tutur. Əsər tədris prosesində xüsusilə faydalı ola bilər. Musiqiçi elegiya üzərində işləyərkən kamera ansamblında ifaçılıq təcrübəsi qazanır, elegiya janrının özü ilə tanış olur, musiqili ifadə vasitələri sahəsində ifaçılıq vərdişlərinə yiyələnir. E.Nəzirovanın elegiyası pedaqoji repertuarın gözəl nümunəsidir və Azərbaycan kamera musiqisində layiqli yer tutur.

E.Nəzirovanın yaradıcılığında fortepiano prelüdləri, etüdləri və Fortepiano ilə violonçel üçün elegiya ilə təmsil olunan miniatür janrı onun bəstəkarlıq fəaliyyətində kifayət qədər mühüm yer tutmuşdur. Şübhəsiz ki, yuxarıda adları çəkilən əsərlər milli ifaçılıq-pedaqoji repertuar üçün qiymətlidir. E.Nəzirovanın yaradıcılığına həsr olunmuş nəşrlərin sayının az olduğunu nəzərə alsaq, təqdim olunan paraqraf çərçivəsində onun əsərlərinin, məhz fortepiano prelüdləri, etüdləri və Fortepiano ilə violonçel üçün elegiyasının ətraflı təhlili bəstəkarın irsinə həsr olunmuş elmi ədəbiyyatın bazasını genişləndirməyə kömək edə bilər.

**“E.Nəzirovanın yaradıcılığında sonata forması (Sonatina və fortepiano üçün Sonata-poema, Violonçel sonatası)”** adlı ikinci paraqrafda bəstəkar E.Nəzirovanın irsindəki sonata forması janrını

təmsil edən əsərlərin təhlilindən ibarətdir. E.Nəzirovanın pedaqoji fəaliyyəti və davamlı pedaqoji işi onu tədris repertuarı üçün əsərlər yaratmaq istiqamətində davamlı yaradıcı axtarışlara sövq etmişdir. E.Nəzirovanın yaradıcılığında bəstəkarlıq və pedaqoji sahələrin qarşılıqlı təsirini nümayiş etdirən nümunələrdən biri də onun 1954-cü ildə nəşr olunmuş Fortepiano sonatinasıdır. Sonatina janrının özü gənc ifaçının musiqi təfəkkürünü daha geniş miqyaslı sonataların öyrənilməsinə hazırlayaraq tədris-pedaqoji təcrübəyə meyl edir. Beləliklə, janr seçimi təsadüfi deyil, bəstəkarın pedaqoji məqsədləri ilə diktə olunur. E.Nəzirovanın faktura cəhətdən mürəkkəb olmayan, pianoçuluq baxımından "əlçatan" Sonatinası əsas tədris və pedaqoji repertuarın gözəl nümunəsidir. Sonatina üzərində iş prosesində fəaliyyətə yeni başlayan pianoçu nəinki iri formanı ifa etmək üçün zəruri bacarıqlara yiyələnir, həm də ona əsərin miqyasını mənimsəməyə imkan verən musiqi təfəkkürünü inkişaf etdirir, xalq musiqisinin motivləri, ritmləri, intonasiyaları ilə tanış olur. E.Nəzirovanın Fortepiano sonatinası şagirdin musiqi zövqünün Azərbaycan xalq musiqisinin mənşəyi ilə sıx əlaqədə formalaşmasına və inkişafına öz töhfəsini verir.

E.Nəzirovanın diqqət çəkən fortepiano əsərlərindən biri 1970-ci ildə bəstələnmiş Sonata-poemadır. Sonata-poema monolit struktur-kompozisiyalı musiqili əsəridir ki, burada üç hissəli sikllilik xüsusiyyətlər poema nəqletmə konsepti vasitəsilə bir hissədə sıxlaşır. Sonatanın obrazlı məna əsasını iki ziddiyyətli mövzu təşkil edir – tutqun, sərt, ehtiyatlı-gərgin əsas mövzu və aydın, işıqlı, lirik əlavə mövzu. Sonata-poemanın tematik materialının ziddiyyəti musiqi obrazlarının "əksliklərin vəhdəti" prinsipinə uyğun olaraq tədricən transformasiya yolu ilə üzə çıxır ki, bu da öz növbəsində musiqi formasına birbaşa inkişaf elementləri ilə xüsusi bağlılıq verir. Mövzuların davamlı çevrilməsi prinsipi və nəticədə müəyyən improvizasiya xarakterli təqdimat musiqiyə ballada və poema kimi lirik-nəqli janrlara xas olan xüsusiyyətlər aşılayır.

Azərbaycan musiqisində kamera-instrumental əsərlərin maraqlı və orijinal nümunəsi E.Nəzirovanın Violonçel sonatasıdır. Əsər Qərbi Avropa və Rusiya bəstəkarlıq ənənələrinin Azərbaycan xalq melodiyalarının elementləri, motivləri və intonasiyaları ilə üzvi və

keyfiyyətli sintezini nümayiş etdirir. Bəstəkar Azərbaycan musiqisinin improvizasiya mahiyyətini peşəkar musiqi sənətinə xas olan musiqi formalarının dəqiqliyi ilə uzlaşdıra bilmişdir. Maraqlıdır ki, E.Nəzirova dramaturji baxımdan bu cür mürəkkəb ansambl janrına artıq professor B.İ.Zeydmanın tələbəsi olaraq ADK-da oxuduğu illərdə müraciət etmuşdir. Gənc bəstəkarın sonatası dərhal diqqəti cəlb etmiş və musiqi ictimaiyyətindən çoxlu müsbət rəy almışdır. Bunun təsdiqi olaraq belə bir faktı qeyd etmək lazımdır ki, sonata Moskvada Sovet Bəstəkarlar İttifaqının VI Plenumunda ifa olunmuş, həmçinin Dövlət Mükafatına təqdim edilmişdir. Violonçel sonatası, hər şeydən əvvəl, gənc müəllifin bəstəkarlıq texnikasına yüksək ustalıqla sahib olması və inanılmaz yaradıcı yetkinliyi ilə heyran edir. Sonata hər bir hissəsi dəqiq düşünülmüş məna konsepsiyasına malik dördhissəli silsilədir. Əsər Azərbaycan intonasiya mənbələrinin müasir bəstəkarlıq məktəbinin əsas tendensiyaları ilə virtuoz sintezini nümayiş etdirir.

Bu paraqrafda təhlil edilən əsərlər milli musiqi mədəniyyətində sonata janrının parlaq nümunələridir. E.Nəzirovanın təfsirindəki sonata forması Azərbaycan milli qaynaqlarını özünə hopdurmaqla, eyni zamanda, XX əsrin ən yaxşı musiqi ənənələrini nümayiş etdirir və onun yaradıcılığında xüsusi yer tutur.

Üçüncü paraqrafda **"E.Nəzirovanın yaradıcılığında variasiya forması (cis-moll, g-moll fortepiano variasiyaları)"** adlanır. Burada E.Nəzirovanın iki fortepiano variasiya siklinin hərtərəfli təhlili aparılmışdır. Variasiya janrı Azərbaycan bəstəkarlarının yaradıcılığında öz layiqli yerini tutmuşdur. Azərbaycan peşəkar musiqisinin, xüsusən də fortepiano musiqisinin nisbi "gəncliyi" ilə əlaqədar olaraq, variasiyalar janrının kristallaşması Qərbi Avropa və Rusiya musiqi mədəniyyətlərinin əvvəlki nailiyyətlərinin Azərbaycan xalq yaradıcılığı ilə qarşılıqlı əlaqəsi əsasında baş vermişdir. Folklor musiqisinin, xüsusən də Azərbaycan muğamının improvizasiya mahiyyəti həm də peşəkar Azərbaycan musiqisində variasiya metodunun üzvi şəkildə tətbiqi və variasiya janrının özündən istifadə olunması üçün mühüm ilkin şərt olmuşdur.

Variasiyalar janrına maraq göstərən bəstəkarlar arasında E.Nəzirova da olmuşdur. O, iki variasiya silsiləsi bəstələmişdir.

Birincisi (1953) mövzu və doqquz variasiyadan, ikincisi (1964) mövzu və beş variasiyadan ibarətdir.

Pianoçuluq baxımından daha mürəkkəb və zəngin olan birinci variasiyalar toplusu (cis-moll) texniki cəhətdən təchiz edilmiş, "hazırlıqlı" ifaçılar auditoriyası üçün nəzərdə tutulmuşdur ki, bu da onu ətraflı təhlil üçün olduqca maraqlı edir. E.Nəzirovanın doqquz variasiyası faktura və obrazlı-emosional zənginliyin üzvi birləşməsini nümayiş etdirir və bununla da həm tədris, həm də konsert repertuarı üçün Azərbaycan fortepiano ədəbiyyatının gözəl nümunəsi hesab olunur.

Birinci, pianoçuluq baxımından daha mürəkkəb, variasiya siklindən fərqli olaraq, ikinci sikl (g-moll) daha gənc pianoçulara - musiqi məktəblərinin şagirdlərinə ünvanlanmışdır. Ümumiyyətlə, E.Nəzirovanın bəstəkarlıq irsinin əksəriyyəti pedaqoji vektor nümayiş etdirir, ikinci variasiya dəftəri də istisna deyildir. Beş g-moll variasiyası ölçülərinə görə kifayət qədər yığcam, fakturaya görə aydındır və onlar tematik materialın lirik nəğməkarlıqdan və şəffaflıqdan faktura sıxlığına və sürətli dinamikaya qədər tədrici inkişafını nümayiş etdirir. Sikl, ilk növbədə, E.Nəzirovanın bəstəkarlıq istedadının pedaqoji tərəfini açıqlayır. Musiqiçinin ən erkən təlim mərhələsindən formalaşması prosesinin vacibliyini dərk edən həssas pedaqoq kimi, o, bəstəkarlıq fəaliyyətində məhz gənc pianoçulara ünvanlanmış əsərlərin bəstələnməsinə xüsusi yer ayırır. Siklin faktura ifadəsinin nisbi sadəliyi əsər üzərində iş prosesini bədii məzmunun reallaşması və musiqi formasını əhatə etməsi yolu ilə istiqamətləndirməyə imkan yaradır. Beləliklə, bu variasiyalar fəaliyyətə yeni başlayan ifaçının daha mürəkkəb və iri formaların öyrənilməsinə hazırlıq prosesində yaxşı təlim "tramplinidir". E.Nəzirovanın variasiya silsiləsi Azərbaycan xalq musiqisinin intonasiyaları ilə möhkəm əlaqə yaratmaqla, gənc ifaçıların musiqi dünyagörüşünü genişləndirir. E.Nəzirovanın beş variasiyası Azərbaycan fortepiano ədəbiyyatının pedaqoji repertuar üçün gözəl nümunəsidir. Bu variasiyalar virtuoz pianoçu, Azərbaycanın Əməkdar incəsənət xadimi, respublikanın Xalq artisti, Ü.Hacıbəyli adına BMA-nın professoru Ülviyyə Hacıbəyovanın müəllifi olduğu fundamental nəşrdə – "Azərbaycan bəstəkarlarının əsərlərinin antologiyası"nda yer

almışdır. Onun təfsirində E.Nəzirovanın g-moll-un faktura baxımından sadə variasiyaları konsert əlamətlərinə sahib olmaqla parlaq, dinamik relyef və ustalıqla səslənir.

Təqdim olunan paraqrafda E.Nəzirovanın iki variasiya siklinin təhlili əsasında təsdiq edə bilərik ki, milli musiqi ədəbiyyatı digər bəstəkarların bu janrda yaratdıqları əsərlərlə yanaşı, variasiya formasının parlaq nümunələri ilə zənginləşmişdir. E.Nəzirovanın təqdim etdiyi cis-moll və g-moll variasiyaları pedaqoji və ifaçılıq repertuarlarında öz layiqli yerini tutmuşdur.

**"Fikrət Əmirovla həmmüəllifliklə yaradılmış əsərlər" adlı III fəsil** iki paraqrafdan ibarətdir ki, burada E.Nəzirova və F.Əmirovun yaradıcılıq tandemində ərsəyə gəlmiş əsərlərin təhlili təqdim olunur. Birinci paraqraf **"İki piano üçün Alban xalq mövzularında süita"** adlanır. E.Nəzirovanın peşə bioqrafiyasının əlamətdar səhifələrindən biri də onun milli bəstəkarlıq məktəbinin ən böyük nümayəndələrindən biri olan F.Əmirovla yaradıcılıq birliyidir. Azərbaycan musiqi tarixində fortepiano dueti janrında ilk əsər olan "Alban xalq mövzularında süita"nın ərsəyə gəlməsi onların birgə peşə fəaliyyətinin nəticəsidir. İlk dəfə o, 1956-cı ildə Azərbaycan bəstəkarlarının I Qurultayında Y.Perevertaylo və İ.Plyam tərəfindən ifa edilmişdir. "Alban xalq mövzularında süita" fortepiano dueti ifaçılarının repertuarında layiqli yer tutur, eyni zamanda milli musiqi ənənələrinin klassik Avropa fortepiano məktəbi ilə sıx bağlılığını nümayiş etdirir. Bu cür sintez Azərbaycanın musiqi mədəniyyəti tarixində mühüm rol oynamış və şübhəsiz ki, dərin iz buraxmışdır.

Nikbinlik və şən əhval-ruhiyyə, melodik və harmonik dilin sonsuz ifadəliliyi, ritmik çeviklik, forma konturlarının təşkili, milli melodiyaya bağlılıq, lirik təfsir - bütün bunlar bəstəkarların birgə yaradıcılığında musiqinin üslub xüsusiyyətlərini formalaşdırmışdır. Digər xalqların folkloruna müraciət etməklə, heç bir üslublaşdırma cəhdi etmədən, bu musiqinin obraz-intonasiya strukturunun xüsusiyyətlərini həssaslıqla dərk edərək, onlar alban xalq musiqisinin özlərinin musiqi üslub palitrasına üzvi şəkildə qovuşduğu orijinal bir əsər yaratmışlar.

Bu, həm Azərbaycan, həm də alban musiqisinə xas olan bəzi oxşar elementlər sayəsində mümkün olmuşdur. E.Nəzirova və

F.Əmirovun birgə yaradıcılığında ənənəvi Azərbaycan musiqisinin Avropa major-minor sistemi və romantik təfəkkür tipi ilə simbiozunu izləmək mümkündür. Fortepiano dueti süita janrının sərbəst anlaşılmasında yaranmışdır. Partiyalar orijinal mahnı-rəqs melodiyalarının təzadlı müqayisəsi əsasında qurulmuşdur. Materialın muğam sənətinə xas olan rapsodik quruluşu və kompozisiyası süitanın formasının mühüm xüsusiyyətidir.

"Alban xalq mövzularında süita" parlaq konsert əhval-ruhiyyəsinə malikdir. Bu aspekt iki fortepianonun müxtəlif registrlərindən geniş istifadə olunmasında, dinamik çalarların qəfil əvəzlənməsində, faktura zənginliyində özünü göstərir ki, bu da əsərin yüksək ifadəliliyini və virtuozluğunu təmin edir. Folklorla yaxınlıq fortepiano ansamblına incəlik verir, "zərif" melodiklik və tematik zənginlik rəngarənglik yaradır. Harmonik effektlərin bolluğu və poliritmlərdən istifadə koloritliyi gücləndirir, nəticədə səslənmənin "orkestr" miqyasına nail olunur. "Alban xalq mövzularında süita" janr və üslub rəngarəngliyi, parlaq obrazlılığı, melodiya, ritm və faktura zənginliyi ilə səciyyələnir ki, bu da ona yarandığı andan bu günə kimi milli musiqi mədəniyyətində mühüm yer tutmağa imkan verir. E.Nəzirova və F.Əmirov öz fərdi koloriti və folklor musiqisinə dərin bağlılığı ilə seçilən belə parlaq əsər yaratmaqla ansambl fortepiano ifaçılığının inkişafına böyük töhfələr vermişlər.

İkinci paraqraf **"F.Bədəlbəylinin təfsirində Ərəb mövzusunda fortepiano konserti"** adlanır ki, burada Ərəb mövzusunda fortepiano konserti dövrümüzün görkəmli pianoçusu F.Bədəlbəylinin təfsir prizmasından təhlil edilir. Konsert 1957-ci ildə F.Əmirov və E.Nəzirova tərəfindən yazılmışdır. Ərəb musiqi materialı əsasında konsert hazırlanması ideyası F.Əmirovda məşhur ərəb əfsanəsinə mənbə qismində müraciət etmiş görkəmli Azərbaycan şairi və dramaturqu Hüseyn Cavidin poetik dramı əsasında hazırlanmış "Şeyx Sənan" dram tamaşasının musiqisi üzərində işləyərkən yaranmışdır.

Konsertin müxtəlif ifaçılıq yozumları arasında F.Bədəlbəylinin parlaq təfsirini xüsusi qeyd etmək lazımdır. F.Bədəlbəylinin şəxsiyyətinin miqyasını və yaradıcılıq fəaliyyətinin əhəmiyyətini qiymətləndirmək çətindir. SSRİ və Azərbaycanın Xalq artisti, Dövlət

mükafatı laureatı, eləcə də “Şöhrət” və “İstiqlal” ordenləri ilə təltif edilmiş, Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rektoru, görkəmli pianoçu, istedadlı bəstəkar və gözəl pedaqoq, professor F.Bədəlbəyli Həqiqətətn də Azərbaycan musiqi sənətində bir fenomendir. Ölkəmizdə ifaçılıq sənətinin çiçəklənməsi onun adı ilə bağlıdır.

F.Əmirov və E.Nəzirovanın fortepiano konserti peşəkar Azərbaycan musiqisini dünya səhnəsinə çıxaran və indi də təmsil edən əsərlərdəndir. Bu prosesdə geniş repertuarında bu konsertin möhkəm yer tutduğu F.Bədəlbəylinin ifaçılıq fəaliyyəti mühüm rol oynayır. F.Bədəlbəyli kimi böyük miqyaslı ifaçını müəyyən mənada konsertin həmmüəllifi də adlandırmaq olar. Yüksək ifaçılıq məharəti, virtuozluq, əsərə öz şəxsi bəstəkarlıq təcrübəsi prizmasından yanaşmaq imkanı verən peşəkar baxış, şübhəsiz ki, F.Bədəlbəylinin konsertə xüsusi intellektual, obrazlı-bədii məzmun verən ifasında öz izini qoymuşdur.

F.Bədəlbəylinin Ərəb konserti üzərində apardığı və fortepiano fakturasının zənginləşdirilməsinə yönəlmiş redaktə işini ayrıca qeyd etmək lazımdır. Redaktə düzəlişləri xüsusilə birinci hissənin fortepiano kadensiyasına təsir etmişdir. Beləliklə, o, əsərin kadensiyasında solistin çoxdan unudulmuş improvizasiya ənənəsini canlandırır, həm də konsertin tematik materialının improvizasiya mahiyyətini vurğulayır. Redaksiya dəyişiklikləri, musiqi materialına dərin çökmənin davamı olmaqla, mümkün qədər üzvi və təbii səslənir. F.Bədəlbəylinin ifaçılıq istedadı və yaradıcı şəxsiyyətinin miqyası Ərəb konsertinin həm dinləyicilər, həm də peşəkar musiqiçilər arasında özünəməxsus populyarlığını təmin etmişdir.

**YEKUNDA** bəstəkarlıq, ifaçılıq və pedaqoji ustalığın inteqrativ mahiyyəti ilə bağlı problemlərin tədqiqinin nəticələri E.Nəzirovanın çoxşaxəli peşəkar fəaliyyətinin timsalında ümumiləşdirilir. Yaradıcılıq prosesinin üç komponentinin – kompozisiya, ifaçılıq və pedaqogikanın dərin qarşılıqlı əlaqəsi və qarşılıqlı təsiri üzə çıxarılır. Musiqiçinin peşə fəaliyyətinin üç istiqamətini əhatə etməklə bu məsələnin bütün genişliyi nümayiş etdirilir. E.Nəzirovanın yaradıcılığının əsas istiqamətlərinə geniş baxış keçirilmiş, onun təşəkkülü və inkişafının ayrı-ayrı mərhələləri

diqqət mərkəzində saxlanılmış, həmçinin onun bəstəkarlıq irsinin parlaq nümunələri işıqlandırılmış və nəzərdən keçirilmişdir.

E.Nəzirovanın yaradıcılığının tədqiqi üç istiqamətdə aparılmışdır:

1. E.Nəzirova – ifaçı. Bu aspekt onun ADK-nın nəzdindəki xüsusi musiqi məktəbində, Sankt-Peterburqun və Moskvanın fortepiano məktəblərinin görkəmli nümayəndələrinin siniflərində fortepianoda ifa etməyi öyrənməsinin ilk addımlarından başlayaraq, həm SSRİ respublikalarında, həm də xaricdə geniş peşəkar ifaçılıqla bağlı qastrol fəaliyyətinə kimi onun formalaşması və inkişafının bütün yolu izlənilməklə maksimum dərəcədə üzə çıxarır.

2. E.Nəzirova – pedaqoqdur və onun şəxsiyyətinin milli fortepiano məktəbinin formalaşmasına təsiri. Bu kontekstdə E.Nəzirovanın bir sıra görkəmli pianoçuların hazırlanması prosesində rolu, eləcə də onun gənc istedadları üzə çıxarmaq bacarığı araşdırılır. Bir çox pianoçular nəsli yetişdirmiş E.Nəzirova öz adını Azərbaycanın musiqi mədəniyyəti tarixinə yazmışdır.

3. E.Nəzirova – bəstəkar. Milli bəstəkarlıq məktəbinin parlaq və özünəməxsus nümayəndəsi olmaqla o, SSRİ bəstəkarlarının çoxsaylı qurultaylarında Azərbaycan Respublikasını təmsil etmiş, onun əsərləri isə həm ölkə daxilində, həm də ölkə hüdudlarından kənarda ən nüfuzlu konsert meydanlarında səslənmişdir.

E.Nəzirovanın bəstəkarlıq irsinin ən yaxşı nümunələrinin ətraflı təhlili aparılmışdır. Dissertasiya tədqiqatının episentri onun yaradıcılıq yolunun müxtəlif mərhələlərində qələmə aldığı əksər əsərlərinin mərhələli təhlilinin aparıldığı orta fəsildir.

Bütün yuxarıda qeyd olunanlara əsasən, təqdim olunan dissertasiya tədqiqatında əsas baxış bucağı öz peşəkar təcrübəsində musiqi sənətinin ifaçılıq, bəstəkarlıq və pedaqogika kimi müxtəlif sahələrini birləşdirən E.Nəzirovanın çoxşaxəli fəaliyyətidir. Məhz bu üçlük onun şəxsiyyətinin timsalında bu fenomeni mərhələli şəkildə açıqlayan tədqiqatın məna mərkəzinə çevrilir. E.Nəzirovanın yaradıcı fəaliyyətinin hər bir istiqamətini tədqiq edən müəllif onların bir-biri ilə dərin qarşılıqlı əlaqəsini və musiqi sənətində bu cür sintezin şübhə doğurmayan perspektivini vurğulayır.

**Dissertasiyanın mövzusu ilə bağlı aşağıdakı əsərlər dərc edilmişdir:**


1. Yusifova, M.N. Görkəmli Azərbaycan bəstəkarı Elmira Nəzirova // – Bakı. Musiqi Dünyası. – 2014. №4(61), – s.5-7.
2. Юсифова, М.Н. Фортепианные прелюдии Эльмиры Назировой // – Bakı. Musiqi Dünyası. – 2016. №4(69), – с.32-39.
3. Юсифова, М.Н. Фортепианная сонатина Эльмиры Назировой // – Bakı. Musiqi Dünyası. – 2019. №2(79), – с.16-21.
4. Юсифова, М.Н. Пять вариаций для фортепиано Эльмиры Назировой // Musiqişünaslığın aktual problemləri. – Bakı. – 4-5 dekabr, – 2019, – s.244-250.
5. Юсифова, М.Н. Девять вариаций для фортепиано Эльмиры Назировой // VI Uluslararası müzik ve dans kongresi. – Alanya. – 30-31 ekim, – 2020, – s.263-274.
6. Юсифова, М.Н. Соната-поэма для фортепиано Эльмиры Назировой // Bəstəkar və zaman. Respublika elmi konfransının materialları və elmi məqalələr toplusu. – Bakı. – 20-21 aprel, – 2021, – s.234-240.
7. Yusifova, M.N. F.Əmirov, E.Nəzirova. İki fortepiano üçün «Alban xalq mövzularına Süita» // VII Uluslararası müzik ve dans kongresi. – Çeşme. – 28-30 mayıs, – 2021, – s.338-344.
8. Yusifova, M.N. Elmira Nəzirovanın Azərbaycan xalq melodiyaları əsasında fortepiano işləmələri // – Bakı. Konservatoriya. – 2021. №4(53), – s.31-44.
9. Юсифова, М.Н. Жанровые особенности фортепианных этюдов Эльмиры Назировой // – Bakı. Sənət Akademiyası. – 2021. №3(15), – с.48-58.
10. Юсифова, М.Н. Элегия для виолончели с фортепиано Эльмиры Назировой // Doktorantların və Gənc Tədqiqatçıların XXIV Respublika Elmi Konfransının Materialları. – Bakı. – 23-24 noyabr, – 2021, – s.356-358.
11. Юсифова, М.Н. Фортепианный концерт на арабские темы Ф.Амирова и Э.Назировой в исполнительской интерпретации Фархада Бадалбейли // – Москва. Музыка и время. – 2022. №6, – с.9-15.

12. Юсифова, М.Н. Роль Узеира Гаджибейли в процессе творческого становления Эльмиры Назировой // – Bakı. Sənət Akademiyası. – 2022. №5(20), – с.54-60.
13. Юсифова, М.Н. Роль Эльмиры Назировой в процессе становления и развития фортепианной школы Азербайджана // – Naxçıvan, Axtarışlar. – 2023. №4(47), – с.154-157.
14. Юсифова, М.Н. Сравнительный анализ творчества Э.Назировой и С.Ибрагимовой сквозь призму синтеза композиторской, исполнительской и педагогической *деятельности // Музыкальная культура Шуши: история и* перспективы развития. Материалы международной научно-практической конференции. – Bakı. – 25-26 aprel, – 2024, – s.238-241.



25

Dissertasiyanın müdafiəsi 28 noyabr 2024-cü il tarixində saat 13⁰⁰ Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının nəzdində fəaliyyət göstərən FD 2.36 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1014, Bakı şəhəri, Ş.Bədəlbəyli küç., 98.

Dissertasiya ilə Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 28 oktyabr 2024-cü il tarixində nüvafiq ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 23.10.2024

Kağızın formatı: 60x84 1/16

Həcmi: 39694 işarə

Tiraj: 30